# OTLAQLARIN DAYANIQLI İDARƏ EDİLMƏSİNDƏ ƏKMƏ OTLAQLARIN ƏHƏMİYYƏTİ

**Pərvanə Vəliyeva, Rasib Zeynalov, Tünzalə Rüstəmova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutu, valiyevaparvanako@gmail.com*

Otlaq və biçənəklər müxtəlif növlərdən ibarət bitki örtüyünə malik olmaqla heyvanların qidalanması üçün lazım olan təbii, ucuz, o cümlədən qidalılıq dərəcəsi olduqca yüksək qaba yem ehtiyatının əldə edilməsində ən önəmli mənbədir. Otlaqlarda təsərrüfat yüklərinin optimallaşdırılmasının mühüm məsələlərindən biri də süni çəmənliklərin, yeni müvəqqəti əkmə otlaqların yaradılmasıdır. Əkmə otlaqların yaradılması kompleks meliorativ tədbirlər tələb edir. Yeni otlaqlar əsaslı səkildə yaxsılaşdırılmalı, ilk növbədə otlaqların ot örtüyü dəyişdirilməli və yaxud bərpa edilməlidir. Bu otlaqlarda həm qoyunların otarılması, həm də yem bitkilərinin yığılaraq mal-qaraya yedizdirilməsi mümkündür. Vaxtilə respublikada 50,0 min hektara qədər suvarılan müvəqqəti mədəni əkmə otlaqlardan çox səmərəli istifadə edilmiş və onların məhsuldarlığı hər hektardan quru ot hesabı ilə 150 tona qədər çatdırılmışdır. Bu gün yeni və müasir mədəni otlaqların yaradılması, köhnə otlaqların bərpası da olduqca vacibdir.

Əkmə otlaq yaratmaq üçün təbii otlaqların torpaq-iqlim şəraiti nəzərə alınmalıdır. Yerli şəraitə uyğun olan yerli ot növlərindən istifadəyə xüsusi əhəmiyyət verilməlidir. Ot qarışığını seçərkən onun hansı məqsədlə (biçənək, yoxsa otlaq kimi) istifadə ediləcəyi də nəzərə alınmalıdır. Ot qarışıqlarının uzunömürlü olması, məhsuldarlığı, yarpaq və zoğ əmələgətirmə qabiliyyəti, otarmaya davamlılığı əhəmiyyətlidir. Əkmə otlaq yaradarkən həm hündür, həm də alçaqboylu otların toxumları qarışdırılıb səpilir. Hündürboylu otlardan çoban toppuzu, çəmən topalı, tonqalotundan, alçaqboylu bitkilərdən otlaq quramiti, ayrıqotundan, paxlalı otlardan isə yonca və xaşadan istifadə etmək lazımdır. Hər iki növün qarışığı (məsələn, tonqalotu, çoban toppuzu və otlaq quramiti) birgə səpilib becərildikdə quramit alçaqboylu olduğundan aşağı yarusda, tonqalotu və çobantoppuzu isə yüksəkboylu olub üst yarusda məhsul əmələ gətirirlər. Kökümsov gövdəli taxıl otlarını digər otlarla qarışıq əkdikdə otlağın ömrü 10 ilədək artır. Təmiz səpinlərə nisbətən qarışıq otlardan yaradılan əkmə biçənək və otlaqların məhsuldarlığı 15%-dən 50%-ə qədər artıq olur. Suvarılan ərazilərdə taxıl otları ilə paxlalı bitkilərin qarışığından yaradılmış otlaqlar daha keyfiyyətli otlaqlar hesab edilir.

Suvarılan otlaqları yaradarkən ən mühüm şərtlərdən biri də ot qarışıqlarının seçilməsində çoxillik otlara üstünlük verilməsidir. Təcrübə göstərir ki, suvarma şəraitində demək olar ki, bütün çoxillik otlar yaxşı məhsul verir, lakin suvarma şəraiti üçün hər cəhətdən perspektivlisi paxlalılardan müxtəlif yonca sortları, taxıl otlarından çoban toppuzu, çəmən topalı, otlaq quramiti (rayqras), tonqalotu hesab olunur. Lazımi qaydada qulluq edildikdə həmin otların qarışığı suvarmada yüksək məhsuldar, uzunömürlü olmaqla, otarmaya davamlı ot örtüyü əmələ gətirir. Bu bitkilər sudan və qidadan tam istifadə edirlər.

Kənd təsərrüfatında istehsalın davamlı və dinamik inkişafı, otlaq və əkin sahələrində torpaqların münbitliyinin qorunub saxlanması və yüksəldilməsi, bitkilərin məhsuldarlığının artırılması və keyfiyyətinin yaxşılaşdırılması üzvi və mineral gübrələrdən istifadə etmədən mümkün deyil. Gübrə təminatını yaxşılaşdırmaqla vahid otlaq və əkin sahəsindən yüksək və keyfiyyətli məhsul götürmək, torpaqların münbitliyini bərpa etmək və yüksəltmək, istehsalın səmərəliliyini artırmaqla əhalinin sosial rifah halını yaxşılaşdırmaq, yoxsulluğu azaltmaq mümkündür.

Otlaqlar vaxtaşırı gübrə ilə təmin edilməlidir. Bütün növ otlaq və biçənəklərin gübrələnmə sistemində əsas rol fosfor-kalium gübrələri ilə uyğunlaşdırılmış azot gübrələrinə məxsusdur. Tərkibində paxlalı və taxıl otlarının çox olduğu otlaq və biçənəklərə birinci növbədə fosfor-kalium

gübrələri verilir, çünki bu torpaqlar üçün azot o qədər də vacib deyil. Azot gübrələri taxıl olan otlaqlara daha çox lazımdır. Fosfor və kalium gübrələri payızda və ya erkən yazda və hər otarmadan sonra verilməlidir. Səpilən ili otlaq 1-2 dəfə çalınmalıdır ki, alaq otları məhv olsun.

Uzun illər respubika ərazisinin bir hissəsinin işğalda saxlanılması nəticəsində otlaqlara xeyli ziyan dəymişdir. Belə ki, mütəmadi olaraq qəsdən törədilmiş yanğınlar nəticəsində 100 minlərlə hektar otlaq, biçənək və yaşıllıqlar yandırılaraq məhv edilmiş, torpağın üst münbit qatı yararsız hala düşmüşdür. Bununla yanaşı, işğal altında olan otlaq ərazilərində saxlanılan heyvanlar məcburiyyət qarşısında respublikanın başqa bölgələrində yerləşdirilmişdir ki, bu da həmin bölgələrdə otlaqların həddindən çox yüklənməsinə səbəb olmuşdur. Nəticədə otlaq əraziləri deqradasiyaya uğramışdır. Bütün bunları nəzərə alaraq, Abşeron rayonunun suvarılan ərazisində müxtəlif bitki qarışıqlarından ibarət əkmə otlaq sahələrinin yaradılması üçün tədqiqat işləri aparılmışdır. Tədqiqai işləri Abşeron Yardımçı Təcrübə Təsərrüfatında (YTT) ərazisində Abşeron yonca sortunun çəmən topalı və coban toppuzu ilə qarışıqlarından istifadə etməklə yaradılmış əkmə otlaqlarda müxtəlif gübrə normalarının tətbiqi ilə yerinə yetirilmişdir.

Təcrübənin nəticələrinə əsasən, əkmə otlağın gübrəsiz variantının yaşıl kütlə məhsuldarlığı 578,4 s/ha, quru ot məhsuldarlığı isə 141,9 s/ha olmuşdur. Təcrübənin digər variantlarının yaşil kütlə məhsuldarlığı 645,2-836,5 s/ha və ya 158,5-203,0 s/ha quru ot arasında dəyişmişdir. Ən yüksək məhsuldarlıq hər otarmadan (çalımdan) sonra azot gübrəsi verilən variantlarda alınmışdır. Bu variantlarda yaşıl kütlə məhsuldarlığı 731,1-836,5 s/ha və ya 179,0-203,0 s/ha quru ot təşkil etmişdir. Belə ki, Abşeron rayonu şəraitində əkmə otlaqlarda hər otarmadan (çalımdan) sonra azot gübrəsi verilən variantlarda gübrəsiz varianta nisbətən orta hesabla 26,4-44,6%, gübrəli variantlara nisbətən isə 10,6-13,3% yüksək yaşıl kütlə məhsulu olmuşdur.

Aparılmış tədqiqatlara əsasən demək olar ki, otlaqaltı torpaqların potensial imkanlarını yaxşılaşdirmaq məqsədilə az məhsuldar və deqredasiyaya uğramış otlaq ərazilərində suvarma şəraitində müvəqqəti əkmə otlaqların yaradılması heyvandarlığın yemə olan tələbatının ödənilməsi və otlaqaltı torpaqların səmərəli istifadəsində xüsusi əhəmiyyətə malikdir.